

■ Rəfail Tağızadə

# Dalğalar layla desin gecənin qulağına

### SÜKUTLU GECƏ

Göy üzü aram-aram
ulduzları qoparır.
Qolun boynuna salıb
bulud ayı aparır.

Yuxumu itirmişəm
bu darıxan gecədə.
Əlin qoynuna qoyub
mürgü vurur küçə də.

Bu sükutlu gecədə
o sevdiyin mahnını
sənin təki oxudum
əyilib ürəyimə.

### DEYİM Kİ, DARIXIRAM

Könlümə toran düşüb,
içim dolu sualdı.
Baxdım sınıq güzgüyə-
Allah, bu hal nə haldı?

Uzun, köhnə sevinci
gözümün yaşı yuyur,
cərgəyə dərd düzülsə,
öndə ayrılıq durur.

İçimdə olan yolun
izinə düşəmmirəm,
dünyaya vurulmuşam
əlimi üzəmmirəm.

Məndən bezən tənhalıq
bu gecə boğar məni...
Könlünə insaf düşsə
təzədən doğar məni.

Hara gedim mən belə
kimin qapısın döyüm?
Deyim ki, darıxıram,
aç qapını, mən ölüm?!

### HƏR ŞEY QARIŞIQ

Bilmədim hansı yanağında,
hansı gözündədi Polşa.
Bilmədim hansını öpüm, hardan öpüm...
Əllərimdən, baxışlarımdan tutub apardın məni.
Qopardın özümdən, qopardın məni...
Apardın məni xəyallar, xatirələr qoynuna,
saldın məni sevdaların oynuna.
Bir saatlıq xəyali səyahətin səadətini
yaşatdın mənə.
Sevə-sevə,
verib əl-ələ,
dil-dilə...

...Getdin, yenə fikirlər qarışıq,
güman qarışıq,
təbəssüm qarışıq,
zaman qarışıq.
Təzə Pir məscidi,
Müqəddəs Xaç kilsəsi,
qarışıq dünyanın
ortaq nöqtəsi.
Azan səsi,
orqan səsi,
insan nəfəsi.

Ürəyin hardadı, xəyalların harda,

polyak qız anası,
bu qarışıq dünyanın su sonası.
Həsrətli baxışlar boylanır
dan yeri kimi qızaran gözlərdən.

### ÇIRPINTILAR

Mən sənin qapını döyməyən poçtalyonam.
Dünyanın ən böyük günah sahibi...
iztirab sahibi, o ah sahibi.
Nə zəng çalınır,
nə səsin eşidilir qapının kandarından.
Bir sükut boylanır ortalıqdan.
Mən sənin qapının önündən sakitcə ötən adamam,
sanki lap yadam.
Dünyanın ən böyük günah sahibi
sevgini öldürəndi.

Hər gün ... ötüb,
sonra arxaya boylanıram,
əlimdən uçmaq istəyən məktubu
bərk-bərk tutub saxlayıram,
əlindən tutan kimi

əlimdə məktub əsir,
məktubda sözüm əsir...
ayrılıq nəfəsimi kəsir.
ömürdə ki tələsir...

Döyülməyən qapı çırpınır,
ürək çırpınır,
məktub çırpınır,
.... məhvərindən çıxan
yerim, göyüm çırpınır,
bir də döyünən, tövşüyən zaman.
Aman-aman...
(küləyə qoşulub pəncərədən gələcəyəm, dayan...)

### O BAXIŞ OLA

Tanrının sevimli bəndəsi kimi
bəxtinə yazılan bir naxış ola.
Üzünə dikilən, gözünə baxan,
sənin istədiyin o baxış ola.

Qəfil ay boylana gecənə sənin,
ulduzdan özünə çələng hörəsən.
Tutub əllərindən bir mələk kimi
sevgi qollarında hey yellənəsən.

Ürkək meh oxşaya üzdə telini,
könlünə bir xəfif sevda toxuna.
Sənin dodağında gəzən pıçıltı
mənim qulağımda gəlib oxuna.

### QARA XATİRƏ

Gecənin birində lap sübhə yaxın
qara xatirələr boğacaq məni.
Bu səsə, bu küyə dözməyən gecə
axırda özündən qovacaq məni.

Dərd də dərd gətirir. Qazancıma bax.
Illər daş səbrimi aldı əlimdən.
Bu gecə yuxuma girən xəyallar
gəlib bir iltizam aldı dilimdən.

Sıxır ürəyimi qara xatirə,
ümidin yolları dardı, dar, Allah.
Bu qədər zamanı necə yaşadım?
Məndə bir ölünün səbri var, Allah.

### YUXUSUZ GECƏLƏR

Daha gecələrin yuxusu qaçıb,
daha yuxular da şipşirin gəlmir.
Gecənin halını kim qaçırıb, kim?
Bu halsız gecələr özünə gəlmir.

Dəniz qaranlığı alıb qoynuna.
Sahilin dərdini ləpələr çəkir.
Bulud arxasında gizlənib ay da.
Gündüzün dərdini gecələr çəkir.

Bu gecə meh də yox. Yatan ağacda
yarpaqlar boynunu budağa dikib.
Girmişəm gecənin dərə bətninə,
görürəm bir qızın yuxusu itib...

### TORPAQ SEVGİSİ

Heç nəyi belə sevmədim:
bir udum su,
bir damla göz yaşı həsrətindən
cadarlanan torpaq qədər.
Kol dibində boynunu bükən
bənövşəni belə.
Ətrindən məst olduğum
qızılgülü belə.
Hətta səni belə...

### DƏNİZ NƏĞMƏSİ

Gedəkmi, ala gözlüm,
sevdiyimiz dənizə?
Eşidib qağayılar
nəğmə oxusun bizə.

Ləpələr gəlib yusun
sahildəki izini.
Ay da çıxıb dəyişsin
dənizin bənizini.

Dalğalar layla desin
gecənin qulağına.
Bir həzin mehə dönüm,
sığınım qucağına.
Qurğuşun ağırlı xatirələr

Sənli xatirələri
mən sənə göndərirəm
göyərçin qanadında.
Hara yığacaqsan?
Üstünəmi örtəcəksən,
bağrınamı basacaqsan
yuxulu xatirələri?
Daşıya biləcəksənmi?
Yoracaq səni
qurğuşun xatirələr.
İçində sən, mən, dəniz,
gecə, ay, yağış...
vədlər, ümidlər,
baxış...
Xatirələr qəfildən
uçuşar otağında
gecə yarasaları kimi.
Bilirəm qaranlıqdan,
yarasalardan qorxduğunu.
Sən mənə baxma,
mən öyrəncəliyəm,
mən dəliyəm.
Divardan asılan təqvim təki
varaq-varaq boşalıram,
toxunma paltar təki
dolaq-dolaq açılıram.
Səninsə ürəyin maqnit kimi
hər şeyi özünə çəkir...
İçində dərd əkir,
dərd.
Ürəyin götürə bilməz
üstünə qaçan,
üstünə axan
o qalın vərəqləri.
Kürək-kürəyə söykənən xatirələr,
rekviyem çalar,
elegiya oxuyar
axşam, səhər.
Hər küncdən
bir kədər boylanar,
kədər.
Bürünüb xatirələrə,
ürəyini alıb əlinə
üstümə yüyür
birtəhər...

### YUXUMDA

Bu gecə yuxumda at oynadırdın.
Dördnala çapırdın səhərə kimi.
O qədər həvəslə yol gedirdin ki,
tamam islanmışdın yəhərə kimi.
Üzdəki sevincin özü gülürdü,
əllərin gülürdü, gözün gülürdü,
danışmaq istəyən, demək istəyən...
qəribə hal alan dodaq gülürdü.
Sən mənim yuxumun ev sahibəsi...
Mən də ki bir qonaq. Qonaq gülürdü...